*Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu,* *p-ISSN: 2410-5600*
*Əlyazmalar yanmır / Manuscripts don`t burn № 1, 2026*

https://doi.org/10.59849/2410-5600.2026.1.19
UOT: 09; 78

**Yeganə Rəhnulla**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: yegane.rahnulla@mail.ru*

# ORTA ƏSR ƏLYAZMALARINDA MUSİQİ ALƏTLƏRİNİN MİNİATÜR TƏSVİRLƏRİ: SƏNƏT VƏ MUSİQİ TARİXİ KƏSİŞMƏSİNDƏ

**Xülasə**

Məqalədə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan Orta əsr miniatürlü əlyazmalarda musiqi alətlərinin təsviri tədqiq edilmişdir. XV–XIX əsrləri əhatə edən müxtəlif ədəbi və tarixi mətnlər əsasında musiqi alətlərinin saray məclislərində, döyüş səhnələrində və mərasim kontekstində paleoqrafik xüsusiyyətləri araşdırılmışdır. Nizami Gəncəvi, Hafiz Şirazi, Əlişir Nəvai, Əbdürrəhman Cami kimi dahilərə məxsus klassik ədəbi nümunələrdə, həmçinin, Mir Möhsün Nəvvab Qarabağı, Mirzə Mehdi xan Astrabadi kimi alimlərin tarixə aid qələmə aldıqları əsərlərdə rast gəlinən miniatürlərdə musiqi alətlərinin rəsmi verilmişdir. Miniatürlərdə qopuz, arfa, surna və digər simli və nəfəsli alətlərin təsviri onların tipologiyasını müəyyən etməyə imkan verir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, miniatürlü əlyazmalar musiqi tarixi və sənət tarixinin qarşılıqlı əlaqəsini əks etdirən mühüm mənbədir. Bu materiallar orta əsrlər Azərbaycan və daha geniş Şərq musiqi mədəniyyətinin və bədii ənənələrinin öyrənilməsində əhəmiyyətli rol oynayır.

***Açar sözlər:*** *Əlyazmalar İnstitutu, miniatürlü əlyazmalar, klassik ədəbiyyat, musiqi alətləri, paleoqrafik təhlil*

## Giriş

*Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilən Orta əsr əlyazmaları yalnız mətnlərin qorunma vasitəsi kimi deyil, həm də dövrün mədəni, elmi və sosial həyatını əks etdirməsi baxımından qiymətlidir. Bu əlyazmalarda həkk edilmiş miniatür təsvirlər, dövrün sənət estetikası, gündəlik həyat və döyüş səhnələri haqqında zəngin məlumatlar təqdim edir. Xüsusilə musiqi alətlərinin təsviri, həm musiqi tarixi, həm də miniatür sənəti baxımından unikal bir məlumat mənbəyi təşkil edir. Miniatürlər vasitəsi ilə Orta əsr cəmiyyətlərinin musiqi təcrübəsini, alət növlərini və onların musiqi məclislərindəki rolunu müəyyən etmək mümkündür.*

Əlyazmalar İnstitutunda qorunan müxtəlif alim və mütəfəkkirlərə məxsus 68 miniatürlü əlyazma nüsxələrindən 21 əsərdə musiqi alətlərinin təsviri həkk edilmişdir, onlar tarixi-xronoloji ardıcıllıqla təqdim edilir:

**1.** ***M-113 بوستان "Bustan" شيخ مصلح الدين سعدى شيرازى Şeyx Muslihiddin Sədi Şirazi (1210-1292)***

Sədi Şirazinin ən məşhur əsərləri "Bustan" (1257) lirik janrda yazılmış islami nəsihətlərdən, dini baxımdan ədliyyə, təvəzökarlıq, bərabərlik kimi keyfiyyətlərin tərifindən ibarətdir [1].

Əsər Şərq istehsalı olan zər səpməli mavi və sarı rəngli kağızlara iki sütunda qara mürəkkəblə gözəl nəstəliq xətti ilə köçürülmüşdür. Fars dilində yazılmış mətnin əvvəlində mavi, qızılı, qırmızı mürəkkəblə bəzədilmiş ünvan var. Əlyazmanın $5^b$, $15^b$, $22^a$ vərəqlərində olan illüstrasiyadan $15^b$

vərəqində yerləşən miniatürdə musiqi alətinin təsviri var [2, v. 15$^{b}$]. Cildi, üzərinə salbəqli şəmsə, köşəbənd və zəngirək basılmış tünd qəhvəyi rəngli dəridir. Əlyazma Heratda h. cümadi əxir 899/m. mart 1494-cü ildə Sultan Əli əl-Məşhədi tərəfindən köçürülmüşdür. Əlyazmanın həcmi 22 vərəq, ölçüsü 14x21 sm.dir.

**2. *M-287 خمسه “Xəmsə” امیر خسرو دهلوی Əmir Xosrov Dəhləvi (1253-1325)***

Əmir Xosrov Dəhləvinin dahi Nizami Gəncəvinin əsərlərindən bəhrələnərək qələmə aldığı *“Xəmsə”*sinə daxil olan *“Mətlə əl-ənvar”, “Şirin və Xosrov”, “Məcnun və Leyli”, “Ayinai İskəndər”, “Həft behişt”* əsərləri ardıcıl verilmişdir. Fars dilində yazılmış əsərlər Şərq istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə səliqəli nəstəliq xətti ilə köçürülmüşdür. Hər əsərin əvvəlində göy və qızılı rəngli mürəkkəblə hazırlanmış sərlövhə təhziblənmişdir. Mövzuya aid 23$^{a}$, 26$^{b}$, 31$^{b}$, 45$^{a}$, 56$^{a}$, 61$^{b}$, 70$^{a}$, 94$^{a}$, 110$^{b}$, 122$^{b}$, 126$^{b}$, 132$^{a}$, 136$^{b}$, 156$^{a}$, 162$^{b}$, 175$^{a}$, 115$^{a}$, 184$^{a}$, 189$^{a}$, 196$^{b}$, 204$^{a}$, 208$^{a}$, 212$^{a}$, 215$^{b}$, 226$^{b}$, 237$^{b}$ iyirmi altı ədəd miniatür içərisində 56$^{a}$, 61$^{b}$, 66$^{a}$, 162$^{b}$, 215$^{b}$, 226$^{a}$ vərəqlərində musiqi alətləri həkk olunmuş illüstrasiya var. Cildi, üzərinə salbəqli şəmsə basılmış, tünd qəhvəyi rəngli dəridir. Xəmsə Həsən bin Kəmaləddin əl-Hadi əl-Hüseyni əl-Yəzdi tərəfindən h.901-902/m.1496-1497-ci ildə köçürülmüşdür [3, v. 242$^{b}$]. Əlyazmanın həcmi 242 vərəq, ölçüsü 14x22 sm.dir.

**3. *M-260 دیوان “Divan” جمال الدین فیروز کوهی امیر شاهی سبزواری Cəmaləddin Firuzkuhi Əmir Şahi Səbzəvari (v. t. 1453)***

Fars dilində qələmə alınmış Divana qəzəllər (1$^{b}$-47$^{b}$), qitə (47$^{b}$-48$^{b}$) və rübai (48$^{b}$-50$^{a}$) daxildir. Əsər Şərq istehsalı olan mavi və sarımtıl rəngli kağızlara qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Mətn mavi və qızılı rəngli mürəkkəblə çərçivə içərisində iki sütunda yazılmışdır. Əlyazma kitabın keçmiş sahibi Əli İshaq oğlu Axundov olmuşdur. Əlyazmanın 15$^{b}$ və 39$^{b}$ vərəqlərində bir ədəd musiqi alətinin şəkli həkk olunmuş miniatür var. Kitabın cildi sonradan bərpa olunaraq kartona keçirilmiş qırmızı rəngli dəriəvəzidir. Əsər h. məhərrəm 981/m. may 1573-cü ildə Məhəmməd Hüseyn Firuzbəxt əl-Hüseyni tərəfindən Qəzvin şəhərində köçürülmüşdür [4, v. 50$^{a}$]. Əlyazmanın həcmi 51 vərəq, ölçüsü 17x24 sm.dir.

**4. *M-165 دیوان “Divan” خواجه شمسُ‌الدّینْ محمّدِ حافظِ شیرازی Xacə Şəmsəddin Məhəmməd Hafiz Şirazi (v. t. 1390)***

Fars dilində yazılmış divan Şərq istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə incə nəstəliq xətti ilə köçürülmüşdür. Mətn qəhvəyi rəngli mürəkkəblə çəkilmiş çərçivə içərisində iki sütunda yazılmışdır. 1$^{b}$-2$^{a}$ vərəqlərində mətnin dörd tərəfi, 13$^{b}$ vərəqində isə mətnin əvvəlində qızılı, göy, mavi rəngli mürəkkəblərlə Şərq ornamentli sərlövhə tərtib edilmişdir. Əlyazmanın 13$^{a}$, 43$^{a}$, 55$^{a}$, 70$^{b}$, 101$^{a}$, 132$^{a}$ vərəqlərində Təbriz miniatür məktəbinə məxsus altı ədəd rəngli miniatür çəkilmişdir. Onlardan 13$^{a}$, 43$^{a}$, 70$^{b}$, 101$^{a}$ vərəqlərində yerləşən miniatürlərdə müxtəlif musiqi alətlərinin şəkli həkk olub. Kitabın titul vərəqində bu kitabın ərəb əlifbası ilə Azərbaycan dilində Əbülqasim Firdovsinin 1000 illik yubileyinə hədiyyə edilməsi qeyd edilmişdir: *“Şair şəhir Firdovsinin min illik yubileyinə girmək üçün təşkil olunan Azərbaycan ... qomisyona hədiyyə. Baku: 9 İyul 1934”.* 187$^{b}$ vərəqində içində *“... Süleyman ... Bismillahir Rəhmanir Rəhim”* sözləri yazılmış böyük oval möhür var [5, v. 187$^{b}$]. Şərq üsulu ilə səhifələnən əlyazmanın cildi, kartona keçirilmiş qəhvəyi rəngli dəridir. Üzərinə basma çərçivə içərisinə salbəqli şəmsə basılmışdır. Əsər h. rəcəb 992/m. iyul 1584-ci ildə Yari əl-Hərəvi tərəfindən köçürülmüşdür. Əlyazmanın həcmi 187 vərəq, ölçüsü 13,5x21,5 sm.dir.

**5. *M-374 خمسه “Xəmsə” نظامی گنجوی Nizami Gəncəvi (1141-1209)***

Əlyazmaya Nizami Gəncəvinin *“Xəmsə”*sinə *“Sirlər xəzinəsi”* (1$^{b}$-25$^{a}$), *“Xosrov və Şirin”* (26$^{b}$-103$^{a}$), *“Leyli və Məcnun”* (103$^{b}$-159$^{a}$), *“Yeddi gözəl”* (159$^{b}$-220$^{a}$), *“İskəndərnamə”* (221$^{b}$-335$^{a}$) əsərləri daxildir.

Əsərlər Şərq istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə narın nəstəliq xətti ilə köçürülmüşdür. Mətn qızılı rəngli mürəkkəblə dörd sütundan ibarət çərçivə içərisində yazılmışdır.



Əsərdə başlıqların yazılmasında qırmızı rəngli mürəkkəbdən istifadə edilib. Hər bir əsərin ilk səhifəsinin ünvanında zər səpməsi ilə təhziblənmiş və qızılı, göy, qara, qırmızı, ağ rəngli mürəkkəblə nəfis sərlövhə tərtib edilmişdir. Əlyazmada mövzuya aid 44 ədəd miniatür həkk olunub: $13^b$, $38^a$, $41^a$, $48^b$, $50^b$, $68^a$, $76^a$, $89^b$, $91^a$, $113^b$, $115^b$, $117^b$, $118^b$, $121^b$, $125^a$, $127^a$, $128^b$, $132^b$, $134^b$, $136^b$, $139^a$, $141^b$, $142^b$, $144^b$, $151^b$, $169^a$, $170^a$, $174^a$, $176^a$, $178^a$, $183^b$, $189^a$, $192^a$, $195^a$, $199^a$, $204^b$. $209^a$, $236^a$, $248^b$, $260^a$, $262^b$, $275^b$, $279^b$, $314^a$. Onlardan $89^b$ vərəqində yerləşən miniatürdə musiqi aləti həkk olunmuş illüstrasiyadır [6, v. $89^b$]. Cildi sonradan bərpa edilərək kartona keçirilmiş zoğalı rəngli dəriəvəzidir. Xəmsəni h.1103-1104/m. 1692-1693-cü illər ərzində Yusif Bəhbəhani tərəfindən köçürülmüşdür. Həcmi 335 vərəq olan əlyazmanın ölçüsü 18x30 sm.dir.

**6. M-199 دیوان *“Divan”* امیر علیشیر نوائی *Əmir Əlişir Nəvai (1441-1501)***

Əlişir Nəvainin türk-özbək dilində qələmə aldığı divanda 576 qəzəl, 2 müstəzad, 2 mühəddəs, 2 müxəmməs, tərcibənd, 39 qitə, 61 rübai, 8 lüqəz, 10 tuyuq, 46 fərdi vardır.

Əsər Şərq istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə səliqəli nəstəliq xətti ilə köçürülmüşdür. $1^{ab}$ vərəqlərində qızılı, qırmızı və mavi rəngli mürəkkəblərlə təhziblənmiş ünvanlar var. Həmçinin $10^b$, $11^{ab}$, $12^{ab}$ vərəqlərində də eyni mürəkkəblərlə işlənmiş ornamentlər var. Mətn qızılı, qırmızı və mavi rəngli mürəkkəblərlə çəkilmiş çərçivə içərisində yazılmışdır. Əlyazma kitabın keçmiş sabibləri haqqında ayrı-ayrı vərəqlərdə məlumatlar var. Divanın ilk sahibi Hüseyn Arif bin Xəlil bin Məhəmməd adlı şəxsin kolleksiyasında h.1140/m. 1727-ci il tarixi qeydləri vardır. Şikəstə xətti ilə yazılmış ikinci qeyd farsca *“Aşkar haqqın sahibi Allahdan başqa Allah yoxdur. Onun qulu Abbasqulu, 1244”* sözləri yazılmış möhürü vardır. Kitabın son sahibi Novruz Ağayevin əlyazmanın müxtəlif vərəqlərində ərəb əlifbası və rus dilində yazılmış *“Baku, Novruz Ağayev”* sözləri yazılmış şəxsi möhürü basılmışdır. Əsərin $59^b$ vərəqində iki musiqi alətinin təsviri olan gözəl çəkilmiş miniatür var. [7, v. $59^b$]. Əlyazma kitabın cildi, üzərinə qızılı zəncirək və salbəqli şəmsə basılan kartona keçirilmiş qəhvəyi rəngli dəridir. Abidə h. 1106/m. 1694 ildə Özbəkistanda hazırlanmışdır. Həcmi 184 vərəq, ölçüsü 17x25 sm.dir.

***M-199 ($59^b$)***
***“Divan”***
***Əmir Əlişir Nəvai***

**7. M-439 خمسه *“Xəmsə”* نظامی گنجوی *Nizami Gəncəvi***

**($26^b$)** Əlyazmaya Nizami Gəncəvinin “Xəmsə”sinə daxil olan əsərlərdən parçalar daxildir. Mətn Şərq istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə narın nəstəliq xətti ilə köçürülmüşdür. Mətn müxtəlif rəngli mürəkkəblə dörd sütundan ibarət çərçivə içərisində yazılmışdır. Əsərdə başlıqların yazılmasında qırmızı rəngli mürəkkəbdən istifadə edilib. Mətnin ilk səhifəsinin ünvanında qızılı, göy, qara, qırmızı rəngli mürəkkəblə nəfis sərlövhə tərtib edilmişdir. Əlyazmada mövzuya aid 3 ədəd miniatür həkk olunub: onlardan $26^b$ yerləşən təsvir *“İskəndərnamə”* əsərindən

olan parçaya daxil olaraq musiqi alətlərinin təsviri olan musiqi məclisinin miniatürüdür [8, v. 26$^b$]. 34$^a$ vərəqində yerləşən illüstrasiya *"Yeddi gözəl"* poemasından olan hissəyə aid olub musiqi məclisinin təsviridir, 59$^b$ vərəqində yerləşən miniatür *"Leyli və Məcnun"* əsərindən olan parçada həkk olunmuşdur. Cildi kartona keçirilmiş qəhvəyi rəngli dəridir, üzərinə bir böyük və iki balaca şəmsə vurulmuşdur. H.1110 /m. 1698-ci illər hazırlanmış əlyazmanın həcmi 84 vərəq, ölçüsü 14,5x24 sm.dir.

**8. *D-146 رستم نامه "Rüstəmnamə"***

Əbülqasim Həsən bin Firdovsi Tusinin *"Şahnamə"*sinə daxil olan dastanlar əsasında nəsrdə qələmə alınmış əsərin müəllifi məlum deyil. Fars dilində qələmə alınmış əsər Şərq istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Mətn mavi və qırmızı rəngli mürəkkəblə çərçivə içərisində yazılıb. Əvvəli naqis olan əlyazma kitabın şirazəsi dağılıb. Əlyazmada 40 rəngli miniatür var: 2$^a$, 4$^a$, 8$^a$, 15$^b$, 18$^a$, 20$^b$, 23$^a$, 31$^a$, 34$^a$, 39$^b$, 44$^a$, 47$^a$, 50$^a$, 52$^a$, 55$^a$, 57$^a$, 59$^b$, 61$^b$, 6$^{3a}$, 64$^a$, 68$^b$, 69$^b$, 79$^a$, 84$^b$, 86$^a$, 94$^a$, 96$^a$, 100$^a$, 103$^b$, 105$^a$, 106$^a$, 109$^b$, 111$^b$, 112$^b$, 115$^b$, 120$^a$, 122$^a$, 125$^a$, 140$^a$, 166$^b$. Onlardan 8$^a$, 31$^a$, 39$^b$, 94$^a$ vərəqlərində yerləşən miniatürlərdə döyüş səhnələrində arxa fonda musiqi alətlərinin rəsmi var. Cildi kartona keçirilmiş qəhvəyi rəngli dəridir, üzərinə isə zəncirək basılmışdır. Əsər h.1178/m.1764-cü ildə köçürülmüşdür [9, v. 180$^b$]. Əlyazmanın həcmi 180 vərəq, ölçüsü 20x33 sm.dir.

**9. M-2 *خسرف و شيرين "Xosrov və Şirin" نامى اصفهانى ميرزا محمد صادق Nami İsfəhani Mirzə Məhəmməd Sadiq (v. t. 1789)***

Əsər mütəqarib ölçüsündə fars dilində yazılmış məsnəvidir. Əsər Avropa istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Mətn qırmızı, göy və açıq yaşıl rəngli mürəkkəblərlə çərçivəyə alınmış iki sütunda yazılmışdır. Əsərdə 17 miniatürdən 8$^b$, 20$^b$, 27$^b$, 36$^b$, 42$^b$, 51$^b$, 58$^b$, 61$^a$, 69$^b$, 75$^b$, 77$^b$, 102$^b$, 106$^a$, 112$^b$, 129$^b$, 160$^a$, 162$^b$ yalnız birində 102$^B$ vərəqində olan miniatürdə qızın əlində arfa musiqi aləti var [10, v. 102$^b$]. Əlyazma Şərq üsulu ilə səhifələnib. Cildi kartona keçirilmiş qara rəngli dəridir. Əsər müəllifin sağlılığında h. rəcəb 1201 /m. aprel 1787-ci ildə köçürülmüşdür. Əlyazma kitabın həcmi 167 vərəq, ölçüsü 9x16 sm.dir.

**10. *M-139 تاريخ جهانگشاى نادرى "Tarixi cahanguşeyi Nadiri" ميرزا مهدى خان استرابادى Mirzə Mehdi xan Astrabadi (v. t. 1759)***

Nadir şahın həyatından bəhs edən fars dilində qələmə alınmış əsər əlyazma toplusunun 1$^b$-216$^a$ vərəqlərini əhatə edir. Əsər Şərq istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Mətn mavi, qırmızı, qızılı rəngli mürəkkəblərlə çəkilmiş çərçivə içərisində yazılmışdır. Əlyazmanın 1$^b$-2$^a$ vərəqlərində mətnin əvvəlində və haşiyəsində mavi, qırmızı, əsasən qızılı rəngli mürəkkəblə çəkilmiş nəbati sərlövhə var. Mətndə Quran ayələri qızılı rəngli mürəkkəblə nisbətən iri xətlə yazılıb. Əlyazmanın 52$^b$, 108$^b$, 126$^b$, 160$^b$, 204$^b$ vərəqlərində döyüş səhnələri olan 4 miniatürdə - 52$^b$, 108$^b$, 160$^b$, 204$^b$ əsasən surna musiqi alətinin təsviri var. Cildi üzərinə zər güllər basılmış qəhvəyi rəngli dəridir. İçəri tərəfinə zoğalı rəngli əbrulu kağız yapışdırılıb. Katib Əli Əsgər Həzər Cəribi tərəfindən h. məhərrəm 1204/m. sentyabr 1789-cu ildə köçürülmüşdür [11, v. 126$^a$]. Əlyazma kitabının ümumi həcmi 445 vərəq, ölçüsü 17,5x29 sm.dir.

**11. D-168 حمله حيدرى *"Həmleyi Heydəri" محمد رفيع خان باذل Məhəmməd Rafi xan Bazil (v. t. 1711)***

Məhəmməd peyğəmbər (s.ə.s.) və rəşidi xəlifələrin həyatından bəhs edən fars dilində yazılmış poema iyirmi səkkiz min beytdən ibarətdir. Əsər Şərq istehsalı olan qalın kağızlara qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Mətn qırmızı rəngli mürəkkəblə iki qat çəkilmiş çərçivə içərisində dörd sütunda yazılmışdır. Başlıqların yazılmasında qırmızı rəngli mürəkkəbdən istifadə edilib. Mətnin haşiyəsində nisbətən kiçik şriftlə yazılmış qeydlər var. 1$^a$ vərəqində pozulmuş bir miniatür var. 1$^b$-2$^a$ vərəqlərində qəhvəyi, mavi rənglərdən ibarət nəbati sərlövhə var. 80$^b$ vərəqində həkk olan döyüş səhnəli miniatürdə iki musiqi alətinin rəsmi var [12. v. 80$^b$]. Şərq üsulu ilə səhifələnən əlyazma kitabın cildi kartona salınmış qəhvəyi rəngli dəridir. Cildin üzərinə kəsişən həndəsi fiqurlu xətlər

basılmışdır. Əsəri İbadullah bin Məhəmməd Əli bin Məhəmməd Baqir Kələki tərəfindən h.10 zilqədə 1209/m. 29 may 1795-ci ildə köçürülmüşdür. Əlyazmanın həcmi 107 vərəq, ölçüsü 20x33,5 sm.dir.

**12.** ***M-145 كليله و دمنه "Kəlilə və Dimnə"***

Ərəb əlifbası ilə Azərbaycan dilində əsər Avropa istehsalı olan filiqranlı mavi rəngli kağızlara qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Əlyazmada Orta əsr mətnşünaslığında tətbiq olunan şərti işarələr qırmızı rəngli mürəkkəblə yazılıb. Əlyazmanın əksər səhifələrində 118 rəngli miniatür var, onlardan 133$^{b}$ vərəqində həkk edilən illüstrasiyada üç musiqi alətinin təsviri var [13, v. 133$^{b}$]. Miniatürlərin rəssamı, əsərin fars dilindən tərcüməçisi və katibi Əvəzəli ibn Şəfiqulu Muğanlıdır. O, əlyazmanı h.şaban 1224/m. oktyabr 1809-cı ildə Şirvanda hazırlamışdır. Cildi sonradan bərpa edilərək kartona keçirilmiş zoğalı rəngli dəriəvəzidir. Əlyazmanın həcmi 158 vərəq, ölçüsü 21x33 sm.dir.

**13.** ***M-147 بحر الحزان "Bəhr əl-hüzən" مير محسن نواب قراباغى Mir Möhsün Nəvvab Qarabağı (1833-1918)***

Mir Möhsün Nəvvabın avtoqraf əlyazma toplusunun 1$^{a}$-71$^{b}$ vərəqlərini əhatə edən əsər Kərbəla hadisələrindən bəhs edir. Fars dilində yazılmış əsər Şərq istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə təliq xətti ilə köçürülmüşdür. Əsər çiçək rəsmli dörd sütunda çərçivə içərisində yazılmışdır. Mətnin əvvəlində müəllifin, əsərin adı, tarixi kimi məlumatlar qırmızı mürəkkəblə yazılan çiçək şəkilli sərlövhə var. Həmçinin əsərdə başlıqların yazılmasında qırmızı rəngli mürəkkəbdən istifadə edilib. Əlyazmanın hər bir səhifəsində müxtəlif rəngli çiçək şəkilləri var. Mətnin haşiyəsində müxtəlif istiqamətlərə yazılmış qeyd və izahlar var. Əlyazmada 23$^{b}$, 46$^{b}$, 55$^{b}$, 60$^{a}$, 63$^{a}$ beş miniatür var, onlardan 23$^{b}$, 46$^{b}$, 60$^{a}$, 63$^{a}$ vərəqlərində həkk olunan illüstrasiyada döyüş səhnələrinin arxasında müxtəlif musiqi alətlərinin təsviri var. Cildi kartona keçirilmiş əsasən qırmızı rənglərdən ibarət çiçəkli kağızdır. Əsər avtoqraf olaraq Nəvvab Mir Möhsün Ağa Mirzəzadə Qarabağı tərəfindən h. 18 rəcəb 1281/m.12 dekabr 1864-ci ildə Şuşada qələmə alınmışdır [14, v. 71$^{b}$]. Əlyazmanın ümumi həcmi 164 vərəq, ölçüsü 22x34,5 sm.dir.

**14. M-51** ***يوسف و زليخا "Yusif və Züleyxa" سيد محمد حاذق Seyid Məhəmməd Haziq ( v. t. 1764)***

Fars dilində qələmə alınmış əsər Şərq istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Mətnin əvvəlində mavi, qırmızı, sarı rəngli mürəkkəblə təhziblənən sərlövhə var. Əsər mavi, qırmızı, qızılı rəngli mürəkkəblə çəkilmiş iki sütunda yazılmışdır. Əlyazmada həkk olunan 20 miniatürdən 18$^{a}$, 25$^{a}$, 33$^{a}$, 34$^{a}$, 37$^{a}$, 40$^{a}$, 45$^{a}$, 54$^{a}$, 71$^{a}$, 80$^{b}$, 84$^{a}$, 92$^{b}$, 105$^{b}$, 104$^{a}$, 125$^{a}$, 133$^{a}$, 141$^{a}$, 152$^{b}$, 160$^{b}$, 168$^{a}$ yalnız birində 37$^{a}$ vərəqində qopuz musiqi alətinin rəsmi var [15, v. 37$^{a}$]. Cildi kartona keçirilmiş xınayı rəngli dəridir. Üzərinə içində sahibinin adı yazılmış salbəqli şəmsə zəncirək basılmışdır. Əsər h.1275/m.1859-cu ildə köçürülmüşdür. Əlyazmanın həcmi 178 vərəq, ölçüsü 13x20 sm.dir.

**15.** ***M-364 ديوان "Divan" جمال الدين فيروز كوهى امير شاهى سبزوارى Cəmaləddin Firuzkuhi Əmir Şahi Səbzəvari (v. t. 1453)***

Fars dilində yazılmış divana qəzəllər (2$^{b}$-47$^{a}$), qitə (47$^{b}$-48$^{a}$) və rübai (48$^{b}$-49$^{a}$) daxildir. Divan Şərq istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Mətn mavi və qızılı rəngli mürəkkəblə çəkilmiş çərçivə içərisində iki sütunda yazılmışdır. Hər bir şeirin adı qızılı rəngli mürəkkəblə təhziblənmişdir. Əlyazmanın 26$^{b}$-27$^{a}$ vərəqləri arasında iki vərəqi naqisdir. 1$^{b}$-2$^{a}$ vərəqlərində musiqi məclisi həkk edilmiş miniatürdə musiqi alətlərinin də təsviri verilib [16, v. 1$^{b}$-2$^{a}$]. Cildi üzərinə salbəqli şəmsə, köşəbənd və zəncirək yapışdırılmış qızılı və qəhvəyi rəngli dəri və kartondur. Özəyi qəhvəyi rəngli dəridir. Təxminən XV əsrin ikinci yarısında köçürülmüş əlyazmanın katibi Sultan Əli Məşhədidir. Əlyazmanın həcmi 49 vərəq, ölçüsü 15,5x22,5 sm.dir.

**16. B-649 يوسف و زليخا** ***"Yusif və Züleyxa" عبدالرحمن نورالدين بن احمد جامى Əbdürrəhman Nurəddin bin Əhməd Cami*** **(1414-1492)**

Fars dilində qələmə alınmış əsər Şərq istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Mətn qara və qızılı rəngli mürəkkəblə iki qat çərçivə içərisində iki sütunda yazılmışdır. Əlyazmada iki miniatür var; $31^{a}$ vərəqində və $41^{b}$ vərəqində olan illüstrasiyada iki musiqi alətinin təsviri var [17, v. $31^{b}$; $41^{b}$]. Şərq üsulu ilə səhifələnən əlyazmanın cildi kartona keçirilmiş üzərinə zəncirək basılmış qəhvəyi rəngli dəridir. Əsər İbrahim bin Həsən Qarabağı tərəfindən təxminən XVI əsrdə köçürülmüşdür. Əlyazmanın həcmi 152 vərəq, ölçüsü 14x22 sm.dir.

**17. M-130 خمسه *"Xəmsə"* نظامی گنجوی Nizami Gəncəvi**

Əlyazmaya Nizami Gəncəvinin *"Xosrov və Şirin"* ($1^{b}$-$83^{a}$), *"Yeddi gözəl"* ($83^{a}$-$135^{a}$), *"Leyli və Məcnun"* ($135^{b}$-$179^{b}$), *"İskəndərnamə"* ($180^{a}$-$198^{b}$) əsərləri daxildir. Əsər Avropa istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Mətn qırmızı rəngli mürəkkəblə çəkilmiş dörd sütundan ibarət çərçivədə yazılıb. Əsərdə başlıqların yazılmasında qırmızı rəngli mürəkkəbdən istifadə edilib. Mövzuya aid $13^{b}$, $16^{b}$, $22^{a}$, $24^{b}$, $25^{b}$, $29^{b}$, $43^{b}$, $46^{b}$, $47^{b}$, $53^{a}$, $57^{a}$, $65^{a}$, $72^{a}$, $96^{b}$, $104^{b}$, $110^{a}$, $115^{a}$, $118^{a}$, $122^{b}$, $126^{a}$, $144^{a}$, $147^{b}$, $157^{a}$, $161^{a}$, $175^{b}$ iyirmi beş ədəd miniatür içərisində $72^{a}$ vərəqində musiqi alətləri həkk olunmuş illüstrasiya var [18, v. $72^{a}$]. Əlyazmanın səhifələrində müxtəlif ölçülərdə şəxsi möhürlər var. Şərq üsulu ilə səhifələnən əlyazma kitabın cildi, boz rəngli kartondur, özəyi boz rəngli dəriəvəzidir. Təxminən XVIII əsrə aid olan kitabın həcmi 198 vərəq, 21x30,5 sm.dir.

**18. M-156 خمسه *"Xəmsə"* نظامی گنجوی Nizami Gəncəvi**

Əlyazmaya Nizami Gəncəvinin *"Sirlər xəzinəsi"* ($1^{b}$-$26^{a}$), *"Leyli və Məcnun"* ($28^{b}$-$77^{a}$), *"Xosrov və Şirin"* ($78^{b}$-$118^{a}$), *"Yeddi gözəl"* ($119^{a}$-$177^{b}$), *"İskəndərnamə"* ($178^{b}$-$309^{b}$) əsərləri daxildir. Xəmsə Şərq istehsalı olan sarımtıl rəngli kağızlara qara mürəkkəblə gözəl nəstəliq və təliq xətti ilə köçürülmüşdür. Mətn qara və qırmızı rəngli mürəkkəblə çəkilmiş dörd sütunda yazılmışdır. Sütunlar bir-birindən qızılı rəngli mürəkkəblə çəkilmiş iki nazik xətlə ayrılmışdır. Əsərdə başlıqların yazılmasında qırmızı rəngli mürəkkəbdən istifadə edilib. $1^{a}$ vərəqində ünvan yerinə bir böyük möhür iki yerdə basılmışdır. $1^{b}$ vərəqində dörd möhür, digər vərəqlərin a hissəsində iki dördbucaq möhür var. Birinci möhürdə *"Seyyid Məhəmməd Əzim Xacə Məhəmməd bin Seyyid, h. 1321 (1903)"*, ikinci möhürdə isə, *"Bu qiymətli övlad və nəvələrinə Yəhya Məhəmməd Muraddan vəqf edilir, h. 1318 (1900)"* sözləri yazılmışdır [19, v. $1^{b}$]. İkinci möhür üç müxtəlif, lakin eyni məzmunda, ölçüdə də az fərqli şəkildə verilmişdir. Onlarda ən qədimi olan *"Yeddi gözəl"* poemasını XVI əsrə, digərlərini XIX əsrə aid etmək olar. *"Yeddi gözəl"* əsərin ilk səhifəsinin ünvanında zər səpməsi ilə təhziblənmiş və qızılı, göy, qara, qırmızı, ağ rəngli mürəkkəblə nəfis sərlövhə tərtib edilmişdir. Xəmsəyə daxil olan bu poemaların illəri və katibləri müxtəlif olmasından məlum olur ki, əsərlər müxtəlif vaxtlarda köçürülmüş və sonradan bir cilddə birləşdirilmişdir. Əlyazmada *"Xosrov və Şirin"* və *"Yeddi gözəl"* poemalarında 43 ədəd rəngli miniatür var: $83^{a}$, $84^{a}$, $84^{b}$, $85^{b}$, $88_{b}$, $89^{b}$, $91^{b}$, $93^{b}$, $96^{b}$, $100^{a}$, $100^{b}$, $104^{a}$, $107^{b}$, $108^{b}$, $109^{a}$, $112^{a}$, $126^{b}$, $127^{b}$, $12^{9a}$, $130^{a}$, $131^{a}$, $131^{b}$, $132^{b}$, $133^{b}$, $134^{b}$, $135^{b}$, $136^{b}$, $137^{b}$, $138^{b}$, $139^{b}$, $140^{b}$, $142^{b}$, $144^{a}$, $145^{a}$, $148^{a}$, $155^{b}$, $158^{b}$, $161^{b}$, $165^{b}$, $167^{b}$, $169^{a}$, $170^{b}$, $171^{b}$. Onlardan $108^{b}$, $109^{a}$, $139^{b}$, $148^{a}$, $161^{b}$, $165^{b}$ vərəqlərində həkk edilmiş miniatürlərdə musiqi alətlərinin şəkli vardır. Mətnin haşiyəsində əsərə uyğun qeyd və izahlar var. Cildi sonradan bərpa edilmiş qapaqlı, üzərinə salbəqli şəmsə və qızılı rəngli zəncirək basılmış qəhvəyi rəngli dəridir. Həcmi 308 vərəq olan əlyazmanın ölçüsü 22x33 sm.dir.



**M-156 (161$^{b}$)**
**"Xəmsə"**
***Nizami Gəncəvi***

**19.** ***M-466*** **شاه نامه** ***"Şahnamə"*** **ابو القاسم حسن بن فردوسی توسی** ***Əbülqasim Həsən bin Firdovsi Tusi (940-1020)***

İran şahlarının tarixindən bəhs edən fars dilində yazılmış əsər Şərq istehsalı olan sarımtıl rəngli yarıahərli kağızlara qara mürəkkəblə nəstəliq xətti ilə köçürülmüşdür. Mətn qırmızı mürəkkəblə çəkilmiş dörd sütunda yazılmışdır. Mövzuya aid 87$^{a}$, 115$^{a}$, 143$^{b}$, 170$^{a}$, 201$^{b}$, 229$^{a}$, 266$^{b}$, 284$^{a}$, 317$^{b}$, 346$^{b}$, 377$^{a}$, 406$^{b}$, 439$^{a}$, 474$^{b}$, 494$^{b}$, 526$^{a}$, 554$^{a}$ on yeddi ədəd miniatür içərisində 170$^{a}$, 284$^{a}$, 317$^{b}$ vərəqində musiqi alətləri həkk olunmuş illüstrasiya var [20, v. 170$^{a}$, 284$^{a}$, 317$^{b}$]. Əsər Şərq üsulu ilə səhifələnib. Cildi kartona keçirilmiş qəhvəyi rəngli dəridir. Üzərinə şəmsə, köşəbənd, zəncirək basılmışdır. Təxminən XVIII əsrə aid edilən əsərin həcmi 572 vərəq, ölçüsü 22x33 sm.dir.



***M-466 (284*[a]*)***
***“Şahnamə”***
***Əbülqasim Həsən bin Firdovsi Tusi***

**20.** ***B-1836* كليات *“Külliyyat”* وحشي البافقي *Vəhşi əl-Bafqi (v. t. 1591)***

Müəllifin fars dilində yazdığı əsərlərindən ibarət külliyata *“Nazir-mənzur ”, “Fərhad və Şirin”* poemaları və qəsidələri daxildir. Əlyazma qara mürəkkəblə nəstəliq xətti ilə sarımtıl rəngli kağızlara köçürülmüşdür. Mətn qara və qızılı rəngli mürəkkəblə çərçivəyə alınmış iki sütunda yazılmışdır. Əlyazma kitabda 4 - 2[a], 27[a], 34[b], 37[b] rəngli miniatürdən 27[a] vərəqində həkk olunmuş illüstrasiyada iki musiqi alətinin rəsmi var [21, v. 27[a]]. Kitabın cildi sonradan bərpa olunaraq kartona keçirilmiş zoğalı rəngli dəriəvəzidir. Əlyazmanın həcmi 131, ölçüsü 13,5x22,5 sm.dir.

**21.** ***S-1079* تذكرهٔ محمد شاه *“Təzkireyi Məhəmməd Şah”* بهمن ميرزا قاجر *Bəhman Mirzə Qacar (1811-1884)***

Təzkirə üç riştədən (başlıqdan) ibarətdir: 1. Müqəddimlər haqqında; 2. Bəzi şahzadələr, görkəmli tacidarlar, əmirlərdən olan şairlər haqqında; 3. Bəhmən Mirzənin öz müasirləri olan şairlər haqqında [22, s. 50-51].

Fars dilində yazılmış əsərin əvvəli və sonu naqisdir. Əsər qara mürəkkəblə nəstəliq xətti ilə Şərq istehsalı olan sarımtıl rəngli kağızlara köçürülmüşdür. Mətn qırmızı rəngli mürəkkəblə çərçivəyə salınaraq dörd sütunda yazılmışdır. Əlyazmada 30 miniatürdən 169[b] qadın məclisində iki musiqi aləti, 84[a], 132[b] döyüş səhnələrində isə arxa fonda musiqi alətlərinin təsviri var [23, v. 84[a], 132[b]]. Cildi kartona keçirilmiş açıq qəhvəyi rəngli dəridir. Təxminən XIX əsrdə köçürülmüş əlyazma kitabın həcmi 243 vərəq, ölçüsü 19x28,5 sm.dir.

## Nəticə

*Aparılan tədqiqat göstərir ki, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan miniatürlü əlyazmalar Orta əsr musiqi mədəniyyətinin öyrənilməsi baxımından mühüm tarixi mənbədir. Əlyazmalarda həkk olunmuş musiqi alətləri yalnız bədii-estetik element kimi deyil, həm də dövrün musiqi təcrübəsi, saray və xalq məclisləri, döyüş ənənələri haqqında etibarlı informasiya daşıyıcısı kimi çıxış edir.*

*Təhlil olunan miniatür nümunələrində musiqi alətləri əsasən üç kontekstdə təsvir olunmuşdur:*
*Saray və ədəbi məclislər;*
*Döyüş və hərbi yürüş səhnələri;*
*Dini səhnələr.*

*Miniatürlərdə təsvir edilən çalğı alətləri – qopuz, arfa, surna və digər simli və nəfəsli alətlər – Orta əsr Şərq musiqi alətləri sisteminin tipoloji xüsusiyyətlərini əks etdirir. Bu təsvirlər musiqi tarixinin yazılı mənbələrdə natamam qalan tərəflərini tamamlayaraq paleoqrafik təhlil üçün zəngin material verir. Xronoloji baxımdan XV–XIX əsrləri əhatə edən əlyazmalar göstərir ki, musiqi alətlərinin təsviri miniatür sənətində davamlı ənənə təşkil etmiş, müxtəlif miniatür məktəblərində (Herat, Təbriz və s.) fərqli üslub xüsusiyyətləri qazanmışdır.*

*Beləliklə, miniatürlü əlyazmalar sənət tarixi ilə musiqi tarixinin kəsişməsində yerləşən kompleks mənbə kimi çıxış edir və Orta əsr Azərbaycan və ümumşərq mədəni mühitinin öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır.*

## Ədəbiyyat siyahısı:

1. https://az.wikipedia.org/wiki/Sədi_Şirazi
2. س. شيرازى بوستان / س. شيرازى AMEA Əlyazmalar İnstitutu. M-113 – Herath: cümadi əxir 899/m. mart 1494. - 22 v.

3. ا. خ. دهلوی. خمسه / ا. خ. دهلوی AMEA Əlyazmalar İnstitutu. M-287 – h. 901- 902/m. 1496-1497. - 242 v.
4. ج. امیر شاهی سبزواری. دیوان / ج. امیر شاهی سبزواری AMEA Əlyazmalar İnstitutu. M-260 – Qəzvin: – h. məhərrəm 981/m. may 1573. - 51 v.
5. ح. شیرازی. دیوان / ح. شیرازی AMEA Əlyazmalar İnstitutu. M-165 – h. rəcəb 992/m. iyul 1584. - 187 v.
6. ن. گنجوی. خمسه / ن. گنجوی AMEA Əlyazmalar İnstitutu. M-374 – h.1103-1104/m. iyul 1692-1693. - 335 v.
7. ع. نوائی. دیوان / ع. نوائی AMEA Əlyazmalar İnstitutu. M-199 – h.1106/m. 1694. - 184 v.
8. ن. گنجوی. خمسه / ن. گنجوی AMEA Əlyazmalar İnstitutu. M-439 – h.1110/m.1698. - 84 v.
9. رستم نامه / AMEA Əlyazmalar İnstitutu. D-146 – h.1178/m.1764. - 180 v.
10. ن. اصفهانی. خسرف و شیرین / ن. اصفهانی / AMEA Əlyazmalar İnstitutu. M-2 – h.rəcəb 1201/m.1787. - 167 v.
11. م. خ. استرابادی. تاریخ جهانگشای نادری / م. خ. استرابادی AMEA Əlyazmalar İnstitutu. M-139 – h.məhərrəm 1204/m.sentyabr 1789. - 445 v.
12. م. ر. باذل. حمله حیدری / م. ر. باذل AMEA Əlyazmalar İnstitutu. D-168 – h.10 zilqədə 1209/m.28 may 1795. - 107 v.
13. کلیله و دمنه / AMEA Əlyazmalar İnstitutu. M-145 –Şirvan: - h. şaban 1224/m.oktyabr 1809. - 158 v.
14. م. ن. قراباغی. بحر الحزان / م. ن. قراباغی AMEA Əlyazmalar İnstitutu. M-147 –Şuşa: - h. 18 rəcəb 1281/m.12 dekabr 1864. - 164 v.
15. م. حاذق. یوسف و زلیخا / م. حاذق AMEA Əlyazmalar İnstitutu. M-51 - h. 1275/m. 1859. - 178 v.
16. ج. امیر شاهی سبزواری. دیوان / ج. امیر شاهی سبزواری AMEA Əlyazmalar İnstitutu. M-364 - 49 v.
17. ع. جامی. یوسف و زلیخا / ع. جامی AMEA Əlyazmalar İnstitutu. B-649 - 152 v.
18. ن. گنجوی. خمسه / ن. گنجوی AMEA Əlyazmalar İnstitutu. M-130 – 198 v.
19. ن. گنجوی. خمسه / ن. گنجوی AMEA Əlyazmalar İnstitutu. M-156 – 308 v.
20. ف. توسی. شاه نامه / ف. توسی AMEA Əlyazmalar İnstitutu. M-466 – 572 v.
21. و. الباقفي. كليات / و. الباقفي AMEA Əlyazmalar İnstitutu. B-1836 – 131 v.
22. Nurəliyeva T. Əlyazma kolleksiyaları kataloqu / T. Nurəliyeva Bakı: - Nurlan. – 2006. – 376 s.
23. ب. قاجر. تذکرهٔ محمد شاه / ب. قاجر AMEA Əlyazmalar İnstitutu. S-1079 – 243 v.

**Yegana Rahnulla**

## MINIATURE ILLUSTRATIONS OF MUSICAL INSTRUMENTS IN MEDIEVAL MANUSCRIPTS: AT THE INTERSECTION OF ART AND MUSIC HISTORY

*Summary*

This article examines the depictions of musical instruments in medieval illuminated manuscripts preserved at the Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. Based on literary and historical manuscripts dating from the 15th to the 19th centuries, the study analyzes the iconographic features of musical instruments represented in courtly gatherings, battle scenes, and ceremonial contexts. Miniatures found in classical literary examples belonging to geniuses such as Nizami Ganjavi, Hafiz Shirazi, Alisher Navoi, and Abdurrahman Jami, as well as in historical works written by scholars such as Mir Mohsen Navvab Karabakhi and Mirza Mehdi Khan Astrabadi, depict musical instruments. The miniatures depict various string and wind instruments

such as the qopuz, harp, and surna, providing valuable data for identifying their typology and functional roles.

The research demonstrates that illuminated manuscripts serve as an important visual and historical source at the intersection of art history and music history. These materials contribute significantly to the reconstruction of medieval Azerbaijani and broader Eastern musical culture and artistic traditions.

***Keywords:*** *Institute of Manuscripts, miniature manuscripts, classical literature, musical instruments, paleographic analysis*

*Filologiya üzrə elmlər doktoru, professor*
***Kamandar Şərifov*** *tərəfindən çapa tövsiyə olunmuşdur.*